Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




**Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!**

**18 oktyabr-Dövlət müstəqilliyi günü münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**18 oktyabr-Dövlət müstəqilliyi günü münasibətilə**-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 30 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

**Müstəqillik Günü haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət

müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü hesab olunmalıdır.

Azərbaycan Respublikasının Milli Məclisi qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Mayın 28-i Müstəqillik Günü elan edilsin.

**Maddə 2.** Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin.

**Maddə 3.** Müstəqillik Günü və Müstəqilliyini Bərpası Günü hər il bayram kimi qeyd edilsin.

Azərbaycan Respublikasının Prezidenti

**Bu gün Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri - Dövlət Müstəqilliyinin Bərpası Günüdür.**

Bu il müzəffər Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 32-ci ilidir.

32 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni dörd gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında bu sənəd qəbul olundu.

2022-ci ilin 15 oktyabrında Milli Məclis prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni qanunu təsdiqlədi. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi.

Təbii ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı, lakin bu ağır günlərdə qətiyyətli iradə nümayiş etdirərək öz taleyinə sahib çıxmağı bacardı.

1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev cümhuriyyətin müstəqilliyini əbədi və dönməz etdi. H.Əliyev ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu.

Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisidir. Bir sözlə, Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idi.

Müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün ölkə prezidenti İlham Əliyev davam etdirilir. Onun rəhbərliyi ilə siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə olunub.

Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlət başçısının müəyyən etdiyi uğurlu inkişaf strategiyası nəticəsində ölkə iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə dayanır.

Azərbaycan xalqının ən böyük arzusu işğal altında olan torpaqlarının azad edilməsi, ərazi bütövlünün bərpası idi. Xalqın bu arzusunu prezident İlham Əliyev reallaşdırdı. 2020-ci ildə 44 günlük Vətən Müharibəsində (İkinci Qarabağ Mühartibəsi) prezident, Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə nəticəsində işğala son qoyuldu, düşmən Azərbaycan torpaqlarından qovulub çıxarıldı, dövlətin ərazi bütövlüyü bərpa edildi. Bu tarixi Zəfəri qazanan Azərbaycan xalqı bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir!

## BÖLMƏ 1

Hər bir xalqın həyatında yaşanan tarixi zəfərin, baş verən əlamətdar ictimai-siyasi hadisənin öz təvəllüd zamanı mövcuddur və təqvimdə əbədiləşməsi, doğru-düzgün adlandırılması mütləq şərtdir.

Gəlin, tarixə bir daha nəzər yetirək.

Bilirik ki, Azərbaycan xalqının ürəyində müstəqillik arzusunun ilk baş qaldırdığı dövr XX əsrin sonu deyil, əvvəlləri idi. Siyasi meydanda Azərbaycanı imperiyanın caynağından qoparmaq istəyən işıqlı, fədakar, döyüşkən ziyalılar var idi. Məhz onların mübarizəsi nəticəsində ölkəmiz öz müstəqilliyini 1918-ci ildə qazana bildi. Həmin il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası "İstiqlal Bəyannaməsi"ni imzaladı, Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi, beləliklə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini yaşatdı.

Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti formalaşdı; dövlət atributları təsis olundu; sərhədləri müəyyənləşdi; dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi; Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı.

Doğrudur, bütün bunlar 23 ay sürdü və Azərbaycan yenidən Rusiya imperiyasının təsiri altına düşdü. Amma tarix xalqımıza öz müstəqilliyini bir daha qazanmaq fürsəti tanıdı və 1991-ci ilin oktyabrında Azərbaycan müstəqilliyini təkrar əldə etdi, əslində isə bərpa etdi.

Dövlət müstəqilliyinin bərpası ilə bağlı 1991-ci il oktyabrın 8-də başlanan Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında müzakirələr 4 gün sürdü, nəhayət, 1991-ci il oktyabrın 18-də tarixi sənəd – "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında "Konstitusiya Aktı qəbul edildi. Dövlət müstəqilliyimizi dünyada ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və başqa dövlətlər tanıdı. 2 mart 1992-ci ildə Azərbaycan müstəqil dövlət kimi BMT-yə üzv qəbul edildi.

Beləliklə, əsrin əvvəlində və sonunda baş verən bu iki tarixi hadisə arasında incə bir fərq var: İlk müstəqillik tarixi 1918-ci ildən başlayır və biz uzun illərdir 28 mayı Müstəqillik Günü

kimi deyil, Respublika Günü kimi qeyd edirik. 1991-ci ildə isə biz müstəqilliyimizi bərpa etdik, ilk dəfə qazanmadıq! Axı əsrin əvvəllərində Azərbaycanın dəyərli ziyalıları tərəfindən bu müstəqilliyin təməli atılmışdı. XX əsrin sonundakı mübariz nəsil isə sələflərinin idealını başa çatdıraraq bu təməlin üzərinə müstəqillik daşları düzmüşdü...

Amma 1993-cü ildə müstəqilliyin itirilməsi təhlükəsi təkrar meydana çıxdı. Lakin onu möhkəmlədən əsas faktor güclü lider amilinə bağlı oldu və böyük siyasi xadim Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyi möhkəm rels üzərinə qoyuldu. Ta bu günə kimi ölkəmizin müstəqilliyi ciddi şəkildə qorunur və Azərbaycan heç bir ölkənin təsir dairəsində olmadan siyasət yürüdərək, öz inkişafı istiqamətində uğurlu addımlar atır.

2023-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 32 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tamam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

Yəni, yeni qanun layihəsində doğru yanaşma ortaya qoyulub: Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurub, 1991-ci ildə isə Azərbaycan Respublikası

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa edib. Beləliklə, “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikası Qanununun layihəsində 1918-ci ildə “İstiqlal Bəyannaməsi”nin qəbul olunduğu 28 mayın Azərbaycan Respublikasında Müstəqillik Günü, 1991-ci ildə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabrın isə Müstəqilliyin Bərpası Günü hesab olunması məntiqə söykənir.

Bölmə II

“Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq.” Son iki ildə bayramları, ölkəmizin həyatında əhəmiyyətli rol oynayan tarixi günləri sözün əsl mənasında bayram abu-havasında, xoş ovqatda qeyd edirik. Tarixi Zəfərimiz, eyni zamanda, tarixi günlərə yenidən baxmağı bir zərurətə çevirdi. Bu baxımdan «Müstəqillik Günü haqqında» Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət kəsb edir. Bildirilir ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət

quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.  Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 May Azərbaycan Respublikasında Müstəqillik Günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət

müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü hesab olunmalıdır. Müstəqilliyimizin bərpasının 32 ilinin ümumi təqdimatı 44 günlük İkinci Qarabağ müharibəsidir. İkinci Qarabağ müharibəsi Azərbaycanın bütün sahələrdə, ən əsası ordu quruculuğunda qazandığı uğurların təqdimatı oldu. Dövlət başçısı İlham Əliyev «Əlbəttə ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir» söyləyərək bildirir ki, bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi – 44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır.

Əlbəttə, müstəqilliyimizin, suverenliyimizin qorunması, daimi olması üçün güclü ordumuzun olması vacib amillərdən biridir. Bu fakt da hər kəsə məlumdur ki, Azərbaycanın ordu quruculuğuna xüsusi diqqət göstərməsi, hərbi büdcəsini artırması işğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər tərəfindən daim reallığa uyğun olmayan şəkildə şərh edilirdi. Bu, Azərbaycanın sülh danışıqlarında maraqlı olmaması kimi dünya ictimaiyyətinə çatdırılırdı. Rəsmi Bakı buna cavab olaraq daim bildirirdi ki, müdafiə qabiliyyətimizi gücləndirmək Azərbaycanın suveren haqqıdır. Ölkəmizin tam haqqı var ki,

işğal altında olan torpaqlarını istənilən yolla azad etsin. 30 ilə yaxın dövrdə Ermənistanın və ona dəstək göstərənlərin danışıqları Azərbaycan xalqının səbir kasasını doldurdu. Rəşadətli Azərbaycan Ordusunun şücaəti dünyaya səs saldı, 30 ildə dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların edə bilmədiklərini etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələri icra olundu, işğala son qoyularaq ölkəmizin həyatında yeni dövr başladı. Dövlət başçısı «Hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir» fikirlərinin davamı olaraq qeyd edir ki, eyni zamanda, təcrübədir. Bu təcrübə bizim üçün əsas olacaq və olmalıdır. Daha müasir ordunun yaradılmasına göstəriş verilib: «Çünki indi hərbi ekspertlər, beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıbdır. Biz elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu, belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər.» Azərbaycan 30 ilə yaxın həsrətlə gözlədiyi sevinci yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı ərazi bütövlüyümüzə qovuşdurdu.

Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsinin 32 illiyini yüksək əhval-ruhiyyə ilə qeyd edən xalqımız Zəfəri bizlərə yaşadan ölkə Prezidenti İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığını ifadə edir.

Qanları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, qəhrəmanlıq, şücaət göstərən qazilərimizə Allahdan şəfa diləyirik.

Tarix baxımdan çox da böyük olmayan 32 ilin ölkəmizə qazandırdığı uğurların miqyası geniş olmaqla yanaşı, qürurvericidir. Müstəqilliyimizin bərpasının 32-cu ildönümü Vətən müharibəsinin getdiyi dövrə təsadüf edirdi. Həmin vaxt 27 sentyabrdan başlanan Qarabağ savaşının oktyabrın 18-dək dövründə tarix yazan Azərbaycan Ordusunun qələbələrini önə çəkərək «Zəfər sizinlədir, Azərbaycan əsgəri!» söyləyərək, dövlətimizin başçısı İlham Əliyevin qətiyyəti, xalqımızın iradəsi, Silahlı Qüvvələrimizin gücü, qüdrəti sayəsində bütün işğal altında olan torpaqlarımızın azad olacağına, üçrəngli bayrağımızın Şuşada dalğalanacağına əminlik ifadə olundu. Çünki Oələbə müjdəli əsgərlərimizin döyüş ruhu yüksək idi. Hər gün Azərbaycanın tarixinə qələbə səhifəsi kimi yazılırdı. Təbii ki, bu uğurlar möhkəm təmələ, dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinə, tarixi həqiqətlərə və real faktlara əsaslanır. Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcəyini ən yüksək tribunalardan bəyan edirdi.

Dövlətinin, xalqının gələcəyini düşünən lider hər zaman uğurların təminatçısı olur. Müstəqilliyimizin bərpasının ilk illərinin xaosunun, özbaşınalıqlarının, hakimiyyət uğrunda

mübarizələrin hansı uğursuzluqlara yol açdığı tariximizin qara, ləkəli səhifəsi kimi xatırlanır. Həmin illərdə ölkəmizə rəhbərlik edənlərin öz şəxsi ambisiyalarını hər şeydən üstün tutmaları Azərbaycanı öz dövlət müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Ən əsası Silahlı Qüvvələrimizin torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının qorunmasına xidmət etməsi ərazilərimizin işğalına gətirib çıxardı. Bu gün Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilər AXC-Müsavat cütlüyünün səriştəsizliyi ucbatından düşmənə verilib.

«1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə həm dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir. Məhz Heydər Əliyev tərəfindən qoyulan bu əsaslar bu gün Azərbaycan xalqına yol göstərir.» Dövlət başçısı İlham Əliyev bu fikirləri ilə müstəqil Azərbaycanımızın 32 illik tarixinin aydın mənzərəsini yaradır. Cənab İlham Əliyev bunu da qarşıya mühüm vəzifə kimi qoyur ki, tarixi paralellər fonunda Azərbaycanın müstəqillik tarixində keçdiyi yol düzgün şərh edilməli, bugünkü və gələcək nəsillərə çatdırılmalıdır.

Tariximizin səhifələrini vərəqləyək. 1990-cı il 20 Yanvar faciəsindən sonra ulu öndər Heydər Əliyev birinci şəxs idi ki, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, «Sovet Sosialist» sözlərini çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmiş və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi, bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Müstəqilliyimizin bərpasının ilk illərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, Azərbaycan dövləti, xalqı həmin illərdəki faciələri, çətinlikləri yaşamazdı. Müstəqilliyimizin

bərpasının birinci dövrü, yəni 1991-1993-ci illər Azərbaycan tarixinə faciəvi dövr, ən əsası qara bir ləkə kimi yazılıb. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri ilə yanaşı, qaranlıq səhifələri də vardır. Bu səhifələr vərəqləndikcə Azərbaycan tarixinin zənginliyi təsdiqlənməklə yanaşı, keçdiyi yolun nə qədər çətin, hamar olmadığı aydın görünür. 1993-cü il dönüş ili idi. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə növbəti mərhələnin - inkişaf, tərəqqi dövrünün əsasını qoydu. Dövlət başçısı İlham Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş tədbirdə söylədiyi bu fikirləri xatırlatmaq istərdik: «İyirmi il həm böyük bir müddətdir, həm də kiçik. Kiçikdir ona görə ki, tarix üçün 20 il heç nədir. Müstəqil bir ölkənin inkişafı üçün 20 il o qədər də böyük müddət deyildir. Ancaq, eyni zamanda, bu 20 il ərzində o qədər böyük işlər görülmüşdür ki, biz bu 20 ili böyük müddət kimi də qəbul edə bilərik və edirik... Müstəqil Azərbaycan bundan sonra əbədi yaşayacaqdır. Bu 20 il 120 il, 220 il, 520 il olacaqdır.» Ölkə Prezidenti İlham Əliyevin bu əminliyinə əsas verən amillər mövcuddur. Ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət və bu xəttin uğurlu davamı Azərbaycanın qarşısında daha böyük zirvələri fəth etmək, biri-birindən əhəmiyyətli uğurlara imza atmaq imkanları yaradıb. Bu fikir beynəlxalq səviyyədə də qeyd

edilir ki, inkişafın Azərbaycan modeli öyrənilməli və digər ölkələr bunu tətbiq etməlidir. Hər zaman önə çəkilən bir fakt da bunun təsdiqidir. 2008-ci ildən dünyanı bürüyən və nəticələri bu günə qədər hiss olunan iqtisadi və maliyyə böhranından Azərbaycanın uğurla çıxması, hazırkı dövrdə dünyanın COVID-19-la mübarizə apardığı zamanda ölkəmizin təkmil təcrübəni ortaya qoyması düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Azərbaycan yalnız daxildə deyil, beynəlxalq aləmdə həyata keçirdiyi tədbirlərlə diqqət mərkəzindədir. Azərbaycan təşəbbüsləri ilə bir-birinə əks qütbləri bir araya gətirir. Dünyaya birlik, həmrəylik mesajlarını ünvanlayır.

Azərbaycan iqtisadi möcüzələr ölkəsi kimi tanınır, yeni iqtisadi və sosial çağırışların müzakirə olunması üçün əsas məkan seçilir. Dünyanın ən islahatçı ölkələri sırasında yer almaq düzgün qurulan siyasətin, uğurlara yol açan sosial-iqtisadi islahatların nəticəsidir. Bu günün əsas çağırışlarından biri həyata keçirilən iqtisadi islahatların fonunda əhalinin sosial müdafiəsini gücləndirmək, yoxsulluq problemi ilə mübarizə aparmaqdır. Azərbaycanın özünü dünyaya sosial dövlət kimi təqdim etməsi bu sahədə əldə olunan uğurların təsdiqidir. Yoxsulluğun azaldılmasına xidmət edən Dövlət proqramlarının uğurlu icrası, əhalinin məşğulluğunun təmin edilməsi, aztəminatlı ailələrin ünvanlı sosial yardım proqramlarından bəhrələnməsi və s kimi addımlar bu gerçəkliyi

təsdiqləyir ki, insan amili dövlətin siyasətində prioritet məsələdir. Təbii ki, bu addımları şərtləndirən əsas amillərdən biri ölkənin iqtisadi imkanlarının genişlənməsidir.

Ulu öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi uzaqgörən siyasətinin nəticəsi idi. Ümummilli Lider dünya təcrübəsinə istinadən bildirirdi ki, heç bir ölkə təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Ulu öndər Heydər Əliyevin birinci şah əsəri kimi dəyərləndirilən «Əsrin müqaviləsi»nin ölkəmizə qazandırdığı uğurlar göz önündədir. Ən önəmlisi «Əsrin müqaviləsi» Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirdi, Azərbaycanın bu gününə və sabahına inamı daha da artırdı. 2017-ci ildə «Yeni əsrin müqaviləsi» imzalandı. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini bir daha möhkəmləndirdi. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində «Əsrin müqaviləsi»nin rolunun təsdiqi kimi Azərbaycan neftinin 2006-cı ildə Ceyhan terminalına məhz 28 May-Respublika Günündə ( hazırda Müstəqillik Günü) çatmasını xüsusi önə çəkən dövlət başçısı İlham Əliyev bunun rəmzi mənası olduğunu belə açıqlamışdır: «Əsrin müqaviləsi» imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi durumunu və beynəlxalq münasibətlər sistemində yeri və rolunu təsəvvür etmək çətin deyildi.» Ölkəmizin iştirakı olmadan hazırda bölgədə hansısa iqtisadi və siyasi layihənin

həyata keçirilməsinin mümkünsüzlüyü, Azərbaycanın təşəbbüslərini gerçəkləşdirən ölkə kimi tanınması da deyilənlərin təsdiqidir.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qürurludur. Artıq bayram günlərində təbriklərimizin mahiyyəti, ifadə etdiyi arzular da dəyişib, yeniləşib. Hər zaman üçrəngli bayrağımızın işğaldan azad olunmasını arzu edir, soydaşlarımızın tezliklə öz doğma yurd-yuvalarına qayıdacaqlarına əminliyimizi ifadə edirdik. Bu gün isə arzular başqadır. Torpaqlarımız ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində öz sahiblərinə qayıtdı, torpaq həsrətinə son qoyuldu. Bugünümüzün əsas hədəfi, arzusu, istəyi işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işlərini tamamlamaq, soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Artıq Qarabağımızın cənnət məkana çevrilməsi üçün bütün zəruri tədbirlər görülür. Böyük Qayıdışın ilk addımı atılıb. Zəngilanın Ağalı kəndi sakinlərini qarşıladı. Şuşamız, Cıdır düzü iki ildir ki, «Xarıbülbül» musiqi festivalına, Vaqif Poeziya Günlərinə ev sahibliyi edir. İki dost, qardaş ölkənin- Azərbaycan və Türkiyənin müttəfiqlik sənədinə-Şuşa Bəyannaməsinə şahidlik edən Şuşanın son bir ildə diplomatik mərkəz kimi nüfuz qazanması qürurvericidir.

Təkcə işğaldan azad edilməsi Azərbaycanın müstəqilliyinin yenidən bərpası ərəfəsində təsadüf edən işğaldan azad edilmiş torpaqlarımızın böyük quruculuq meydanına çevrilməsini fəxrlə qeyd edə bilərik. Bu gün Qarabağdan və Şərqi Zəngəzurdan dünyaya hava qapısının açılması həm bu ərazilərimizin böyük inkişaf dövrünü yaşadığını təsdiqləyir, eyni zamanda, dünyaya lazım olan mesajları çatdırır. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyət qaydışından sonra torpaqlarmızın işğaldan azad edilməsi istiqamətində hazırlıq işlərinə həsr edən Azərbaycanın qarşısında bundan sonra daha böyük hədəflər dayanır. Qalib Azərbaycan yeni reallıqları diktə edərək sözünün nə qədər əhəmiyyətli olduğunu təsdiqləyir. Uğurlarımızın fonunda bu həqiqəti bir daha qeyd edə bilərik ki, müstəqillik yalnız atributları ilə ölçülmür. Müstəqillik müstəqil siyasət həyata keçirməkdir ki, Azərbaycan davamlı uğurlara bu siyasəti ilə nail olur. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın adına qalib sözünü əlavə edən dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə xalqın sevgisi sonsuzdur.

## Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Xalqımız keşməkeşli mübarizələr və qurbanlarla dolu tarixi bir yol keçmişdir. Bunların hamısının bir məqsədi, bir məramı olmuşdur: azadlıq, müstəqillik, xalq iradəsinin sərbəstliyi. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti də məhz müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən ölkəmiz artıq demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Ona görə də XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır. Bu dövr ərzində nə qədər ağır və çətin sınaqlardan keçdik. XX yüzilliyin sonuna yaxın qarşılaşdığımız problemlər bəlkə də o sınaqların ən böyüyü, ən məsuliyyətlisi idi. Çünki burada söhbət ayrı-ayrı şəxslərin deyil, bütöv bir millətin taleyindən, azad və müstəqil yaşaya bilməsindən gedirdi. Son iki on ildə keçilən yol isə daha mürəkkəb olmuşdur.

Qeyd etdiyimiz kimi, 2023-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin otuz ikinci ildönümü qeyd olunur. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir. Çünki, azadlığı, suverenliyi, müstəqil dövləti olmayan xalqın millətlər içərisində yaşamaq haqqı yoxdur. Otuz iki illik inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki,

bu gün Azərbaycan, sözün əsl mənasında, artıq tam müstəqil ölkədir.

Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 32 ildönümü münasibətilə respublikamızın hər yerində olduğu kimi, kitabxanalarda, lisey və gimnaziyalarda, ümumtəhsil məktəblərində, muzeylərdə və s. yerlərdə bir sıra silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da öz əksini tapmışdır. Bu tədbirlərin siyahısı geniş və rəngarəngdir. Tədbirlər planına müstəqilliyimizlə bağlı müxtəlif sərgiləri: kitab sərgisi, rəsm sərgisi, foto sərgi, əl işlərinin sərgisi, kitab icmallarını, oxucu konfranslarını, inşa, şeir, rəsm müsabiqələrini, ədəbi-bədii kompozisiyaları və s. daxil etmək olar. Həmçinin, kitabxanada böyük yaş qrub oxucular arasında sorğunun da keçirilməsi məqsədəuyğun olardı. İlk növbədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında müstəqilliyimizin 32 ildönümü ilə bağlı sərginin keçirilməsi vacibdir. Sərgidə Azərbaycan Respublikasının dövlət müstəqilliyi ilə bağlı nəşr olunan kitabları, proşuraları, dövrü mətbuatda çap olunan qəzet və jurnalları nümayiş etdirmək olar. Beləki, sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Müstəqillik yollarında", Ad günün mübarək, Azərbaycan!", Müstəqilliyimiz milli sərvətimizdir", "18 oktyabr Dövlət Müstəqilliyi günüdür!", "Ən böyük nailiyyətimiz əbədi

müstəqilliyimizdir", "Müstəqilliyimizin 32 ildönümü" və s. İndi isə "Müstəqilliyimiz milli sərvətimizdir"adlı sərginin sxemini nümunə üçün veririk:

1.Başlıq: "Müstəqilliyimiz milli sərvətimizdir".

2. Azərbaycan Respublikasının üçrəngli bayrağı.

3. Müstəqilliyimizlə bağlı görkəmli insanların söylədikləri sitatlar:

4. Müstəqilliyimizlə bağlı nəşr olunmuş kitabların nümayişi.

1. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. I cild.

2. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası II cild.

3. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar.

4. Azərbaycan Demokratik Respublikası Dövründə Ədəbiyyat.

5. Müstəqil Dövlətimiz və Parlamentimiz.

6. Şeir parçası

Mənim könlüm deyir ki,
Hələ bunlar nədir ki...
Böyük günlər, şanlı günlər, şən günlər,
Yoluna düşən günlər
Hələ qarşımızdadır!

Mikayıl Müşfiq

Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcək.

Heydər Əliyev,
Ümumilli lider

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir.

Heydər Əliyev,
Ümumilli lider

Müstəqil Azərbaycan on ildir yaşayır və bundan sonra on illər də yaşayacaq, əbədiyyətə qədər yaşayacaqdır.

Heydər Əliyev,
Ümumilli lider

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir.

Heydər Əliyev,

Ümumilli lider

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

Heydər Əliyev.

Ümumilli lider

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

Heydər Əliyev.

Ümumilli lider

Biz fəxr edirik ki, 29 il müstəqil dövlət kimi yaşayırıq., öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir.

İlham Əliyev,

Azərbaycan Respublikasının Prezidenti

Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xöşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan

Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq.

İlham Əliyev,

Azərbaycan Respublikasının Prezidenti

İnsanlara hürriyət, millətlərə istiqlal!

Məhəmməd Əmin Rəsulzadə

İnsan vətənini sevir, çünki hürriyyəti, firavanlığı, haqqı vətən sayəsində mövcuddur.

Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: - ana dilimizi - vicdanımızı - Vətənimizi.

Şah İsmayıl Xətai

Vətənə məhəbbət mücərrəd anlayış deyil, o, təşkilatçılıq, inkişaf və mədəniyyət tələb edən real mənəvi qüvvədir.

Lev Tolstoy

Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

Nəriman Nərimanov

Vətən azadlıq olmadan, azadlıq fəzilətsiz, fəzilət isə vətəndaşsız mövcud ola bilməz. Əgər siz vətəndaş yetişdirsəniz, tərbiyə etsəniz, o zaman sizin hər şeyiniz olacaq, əks təqdirdə hamı, hətta dövlət başçısı belə miskin bir kölə olacaq.

Jan Jak Russo

Bir millətin yaşaya bilməsi üçün azadlıq və müstəqilliyə sahib olması lazımdır.

Mustafa Kamal Atatürk

Bizim dövlətçilik tariximiz, dövlətçilik ənənələrimiz çox qədim və zəngindir. Ona görə də müstəqil dövlətimizi qurarkən biz dünya təcrübəsindən, ümumbəşəri dəyərlərdən bəhrələnməklə yanaşı öz dövlətçilik ənənələrimizə söykənmiş, ondan istifadə etmişik. Bu ənənələr bu gün Azərbaycanda yaşadılır, təkmilləşdirilir və inkişaf etdirilir.

Seyfəddin Qəndilov

Tarix elmləri doktoru, professor F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Müstəqilliyimizin 29 ildönümü münasibətilə orta və böyük yaş qrup oxucular arasında söhbətin keçirilməsi də məqsədəuyğun olardı. Beləki, kitabxanaçı söhbətə belə başlaya bilər.

Bildiyiniz kimi, ötən əsrin səksəninci illərin sonunda sovet imperiyası dağılmaq təhlükəsi ilə üzləşmişdi. Ölkə iqtisadi

cəhətdən çökmüşdü. Milli respublikalarda azadlıq və müstəqillik hərəkatı baş qaldırmışdı. Xalqların azadlıq mübarizəsini dinc yolla nizamlaya bilməyən SSRİ rəhbərliyi silahdan istifadə etməyə məcbur olmuşdu. 1986-cı ildə Qazaxstanda, 1989-cu ildə isə Gürcüstanda xalq hərəkatı silah gücünə yatırılmışdı. Çoxlu insan məhv edilmiş, ondan qat-qat çoxu zindanlara salınmış, işgəncələrə məruz qalmışdı. Lakin xalqların azadlıq arzusu sönməmişdi...

Əziz uşaqlar, 1988-ci ildən başlayaraq soydaşlarımızın indiki Ermənistan ərazisindəki dədə-baba torpaqlarından kütləvi surətdə qovulması respublikamızda ciddi narahatlıq yaratmışdı. Düşmənlərimizin Azərbaycanın Dağlıq Qarabağ ərazisini Ermənistana birləşdirmək cəhdləri bu narahatlığı daha da artırmışdı. Bütün bunlar həm də Azərbaycanda xalq hərəkatının güclənməsinə səbəb olmuşdu. Sovet rəhbərliyi isə ermənilərin xalqımıza və ərazi bütövlüyümüzə qarşı yönəlmiş qanunsuz əməllərinin qarşısını almaq istəmədi. Bu, azadlıq hərəkatının daha da coşmasına gətirib çıxardı. İmperiya rəhbərliyi Azərbaycanda xalq hərəkatının güclənməsindən qorxuya düşdü.

Buna görə də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxtımıza qoşun yeridildi və əhali gülləboran edildi. 20 Yanvar faciəsindən sonra xalqımız azadlığa gedən yoldan dönməyəcəyini bəyan etdi.

1991-ci ilin avqustunda sovet rəhbərliyində baş verən qiyam parçalanmaqda olan imperiyanı zor gücünə "sağlamlaşdırmaq", SSRİ-ni yenidən dirçəltmək məqsədi güdürdü. Lakin bu istəyin əksinə olaraq qiyam əslində imperiyanın dağılmasını daha da sürətləndirdi. Beləki, məhz həmin çevriliş cəhdindən 2-3 ay sonra bir sıra respublikalar müstəqilliklərini dünyaya bəyan etdilər, sovet rəhbərliyi isə bunun qarşısını ala bilmədi. 1991-ci il oktyabrın 18-də Azərbaycan eyni əsrdə ikinci dəfə öz müstəqilliyini, Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğunu elan etdi...

Beləliklə, əziz uşaqlar bu gün biz sizinlə birlikdə Müstəqilliyimizin 32-ci ildönümünü qeyd edirik. Gəlin bir daha söyləyək, "Ad günün mübarək, Azərbaycan!"

Söhbətin sonunda kitabxanaçı uşaqlarla sual-cavab edir. Kitabxanaçı əvvəlcədən hazırladığı anket-sorğusunu oxucular arasında paylayır.

1. Sual: 18 oktyabr ölkəmizdə hansı gün kimi qeyd olunur?
Cavab: 18 oktyabr ölkəmizdə müstəqillik günü kim qeyd olunur.

2.Sual: Müstəqil Azərbaycan Dövləti nə vaxt yaradılmışdır?
Cavab: Müstəqil Azərbaycan dövləti ilk dəfə 1918-ci il mayın 28-də yaradılmışdır.

3.Sual: Müstəqil Azərbaycan dövləti neçə ay yaşadı?
Cavab: Müstəqil Azərbaycan dövləti təəssüf ki, cəmi 23 ay yaşadı.

4.Sual: Müstəqillik deyəndə nəyi başa düşürsünüz?
Cavab: Müstəqillik deyəndə azadlıq, müstəqillik, suverenlik başa düşülür.

5.Sual: Azərbaycan Xalq Cumhuriyyətinin Dövlət Rəmzləri hansılardır?
Cavab: Azərbaycan Xalq Cumhuriyyətinin əsas dövlət atributları-Dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni və Dövlət möhürüdür.

6.Sual: Azərbaycan Respublikasının Dövlət bayrağı nəyin rəmzidir?

Cavab: Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

7.Sual: Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərində hansı təsvirlər vardır?

Cavab: Bayrağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz vardır.

8.Sual:Bayrağın üzərində hansı rənglər var və bu rənglər nəyi ifadə edir?

Cavab: Azərbaycan bayrağının yuxarı hissəsində göy zolaq, aşağı hissəsində yaşıl zolaq, orta hissəsində isə qırmızı zolaq vardır. Bu rənglər ayrı-ayrılıqda hər biri bir məna ifadə edir. Mavi rəng-Azərbaycan xalqının türk mənşəli olmasını, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng-müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni ifadə edir. Yaşıl rəng-islam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

9.Sual: Azərbaycan Dövlət Himninin musiqisi və sözləri kimə aiddir?

Cavab: Azərbaycan Dövlət Himninin musiqisi Üzeyir Hacıbəyov, sözləri Əhməd Cavada aiddir.

Sonda fəal oxucular Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirini söyləyirlər.

Dostlar! Gəlin sizə bir-bir danışım
Min bağın, bağçanın barı məndədir.
Sinəm oylağıdır gözəlliklərin
Hər sevən ürəyin yarı məndədir.

Nə çoxdur qoynumda almalı bağlar!
Qüdrətim göylərin dilini bağlar.
Meşəli dərələr, sal buzlu dağlar
Dağların süd kimi qarı məndədir.

İnsan bir uşaqdır, vətən bir ana,
Ömür bir çıraqdır, könül pərvanə.
Yolunuz düşdümü bizim Şirvana?
Gül açan heyvası, narı məndədir.

İgidlər yurdudur, bu dağ, bu aran
Bu dağlar başında qalmamış boran.
Hər təzə çiçəkdən bir şirə soran
Pətəyə bal düzən arı məndədir.

Ağdaşın pambığı çiçək-çiçəkdir,
Şəkinin bəzəyi şaldır, ipəkdir.
Qarabağ gözəli dünyada təkdir,
İsti yanaqların narı məndədir.

Ölsün bu yerlərdən ilham almayan,
Qəlbini saz kimi tutub çalmayan.
Yarışda gənclikdən geri qalmayan
Min qoca məndədir, qarı məndədir

Şirindir insanın öz azadlığı,
Könül azadlığı, göz azadlığı,
Qələm azadlığı, söz azadlığı,
Dünyanın ən böyük varı məndədir.

Gəldi ömrün gözəl bahar çağları
Açılmışdır könüllərin bağları.
Qarış-qarış dolan bizim dağları
Diş göynədən bulaqları məndədir.

Sarı limon çay üstündə dad olur,
Gözüm görür, könlüm evi şad olur.
Hansı namərd dost evinə yad olur?
Məhəbbətin vəfadarı məndədir.

Ötüb getdi günlərimi saymağım,
Dildən-dilə dastan oldu oymağım,
Təmiz südüm, şəkər kimi qaymağım,
Dövlətimin ixtiyarı məndədir.

Axşamüstü Bakıya bax doyunca,
Ulduzlarım yanır sahil boyunca.
Dağ üstündə o qərənfil, o yonca
Vətənimin laləzarı məndədir.

Mən xoşbəxtəm azadlığım gələli,
Tarix yazır ellərimin öz əli,
Bayrağımdır uca Şərqin gözəli
Azadlığın düz qərarı məndədir.

18 Oktyabr bu gün Azərbaycan tarixinə qırmızı hərflərlə yazılmışdır. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Müstəqilliyimizin 32-ci ildönümü ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasında şeir müsabiqəsinin keçirilməsi də məqsədəuyğundur. Şeir müsabiqəsi uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, uşaqlar belə tədbirlərdə özlərinin şeir demək bacarıqlarını nümayiş etdirirlər. Oxucular səhnəyə daxil olur. Şairə Solmaz Şirinin "Müstəqillik bayramı" adlı şeirini söyləyirlər.

Müstəqillik bayramındır
Bu gün sənin, Azərbaycan!
Xoşbəxt, gülər məqamındır,
Yoxdur tənin, Azərbaycan!

Bu gün sərbəst bir ölkəsən,
Qonşulardan sən öndəsən.
Uğuruna böyük əhsən!
Safdır şənin, Azərbaycan!

Dünyaya səs salıb adın,
Şərəf ilə sən ucaldın.
Dirəyindir hər övladın,
Ucal, mətin Azərbaycan!

Neftin, qazın bir məlhəmdir,
Düşmənlərə min ələmdir.
Dostlarına çox kərəmdir
Sədaqətin, Azərbaycan!

Günü-gündən ucalırsan,
Ucalıqdan öc alırsan.
Solmaz demir, qocalırsan,
Yeni, dərin Azərbaycan!

Kitabxanada keçiriləcək tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Birinci hissədə tədbirdə iştirak edən qonaqların çıxış və məruzələri dinlənilir. İkinci hissədə isə Müstəqilliyimizlə bağlı bir çox videolentlər, müxtəlif slaydlar nümayiş olunur. Həmçinin təbbirin bədii hissəsində müxtəlif şeir, və musiqilər də səslənir. Qeyd etdiyimiz kimi, tədbir bir çox başlıqlar altında keçirilə bilər. İndi isə "Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir" adlı ssenarini sizə təqdim edirik. Bildiyiniz kimi, ədəbi-bədii gecə iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə şagirdlər müstəqilliyə aid şeirlər söyləyir, mahnılar ifa edir, maraqlı səhnəciklər, ədəbi-bədii kompozisiyalar nümayiş etdirirlər. Tədbir Azərbaycanın Dövlət himni ilə başlayır.  Bayram əhval-

ruhiyyəsi ilə bəzədilmiş səhnəyə üçrəngli Azərbaycan bayrağı gətirilir. Müstəqilliyimizə aid sitatlar səhnənin divarından asılır. Məsələn: “Müstəqillliyimiz əbədidir”, İnsanlara hüriyyət, millətlərə istiqlal”, “Haqq verilməz, alınar!”,”Bir daha yüksələn bayraq, bir daha enməz” və s. Həmçinin tədbirin qonaqlarına Müstəqilliyimizin 32-ci ildönümü münasibətilə nəşr olunmuş proşuralar, biblioqrafiq tövsiyyələr, foto albomlar və s. paylanılır. Tədbiri aparıcı açıq elan edir:

“Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir.”

Heydər Əliyev,

Ümumilli lider

I Aparıcı: Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanını yaşayırıq. Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazır. Hər dəfə eşidilən qələbə sorağı insanların qələbəyə yaxınlaşdığına əminlik yaradır. Düz 32 il bundan əvvəl elan olunan 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Gününü xalqımızın tarixinə həkk olundu. 32 illik müstəqillik tariximizdə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın

yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz bu müstəqillik tarixində əldə olunan nailiyyətlərdir. Bu gün - 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. 32 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub-saxlaya bilmişdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət

müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji

gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. Oxucular səhnəyə daxil olur, xalq şairi Bəxtiyar Vahabzadənin "Vətən marşı" adlı şeirini söyləyirlər.

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.
Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik
Biz Vətən naminə ölsək, dirilərdən diriyik.
Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım".
Sən bu gül bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,

Günəş hər gün doğur ancaq içimizdən Vətənə.
Bizim iqbalımızı yazdı qılıncın kəsəri,

Bizi biz etdi Dədəm Qorqud oğuznamələri.
Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi – qızlar Vətəni.
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapmar haqqa və insanlığa haqqdan doğulan.
Bəşərin dərdini öz dərdi bilib millətimiz.
Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.
Gecələr yatmadan əvvəl sor özündən ki:
"Bu gün Mən nə etdim məni yurddaş edən öz yurdum üçün?"

Bu gün Azərbaycan güclü, qətiyyətli mövqe nümayiş etdirən müstəqil dövlətdir. Keçdiyimiz yol, bu yolda qarşımıza çıxan maneələr, müsəqillik arzusunu boğa bilmədi. Çünki Azərbaycan sadəcə sözdə azad olmadı, real işdə, dövlət quruculuğunda müstəqillik yolunda inamla addımlayan ölkə olduğunu dünyaya nümayiş etdirdi. Ulu öndər Heydər Əliyev dövlətin suverenliyini tam təmin edən mükəmməl siyasi kurs həyata keçirdi, Prezident İlham Əliyev onu inkişaf etdirərək, yeni uğurlara imza atdı. Milli maraqlar, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu uğurla davam etdirdi.

Artıq biz bugün neçə illərdir ki həsrətində olduğumuz anların şahidi oluruq. Azərbaycan ordusu Qarabağda şanlı tarix yazır. Sentyabrın 27-də cəbhədə təxribat törətmək istəyən düşmən ordusuna ən layiqli cavabı Azərbaycan əsgəri verdi. 30 ilə yaxındır ki düşmən tapdağı altında olan şəhər və kəndlərimiz düşmən işğalından xilas olunub.Təbii ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı. Lakin xalqımız bu ağır günlərdə qətiyyətli iradə nümayiş etdirərək öz taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Əslində, Azərbaycan əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən ümummilli lider Heydər Əliyev müasir dövlət quruculuğu işlərinə başladı. Ulu Öndərin yorulmaz səyləri nəticəsində qısa müddətdə Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların

kürsüsündən gəldi. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ulu Öndərin çoxşaxəli fəaliyyətinin nəticələrinə arxalanaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə edilib. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlətimizin başçısının müəyyən etdiyi uğurlu inkişaf strategiyası nəticəsində ölkə iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə dayanır.Ümummilli Liderin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin bu arzusunu da onun layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə nəticəsində işğala son qoyuldu, düşmən torpaqlarımızdan qovulub çıxarıldı, ərazi bütövlüyümüz bərpa

edildi. Bu tarixi Zəfəri qazanan Azərbaycan xalqı bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir!

Qarabağ Azərbaycandır!

Oxucular səhnəyə daxil olur, müəllifi Abdulla Şaiqə aid olan "Odlar ölkəsi" şeirini söyləyirlər.

Qəlbini ucaltmış göyə məşəl tək,
Bakıdır köksündə döyünən ürək.
Gülür gözlərində böyük gələcək.
Eşitsin obalar, ellər bu səsi:
Bu gün bayram edir Odlar ölkəsi

Dostluğun eşqilə ucalırıq biz,
Gül açır, bar verir diləklərimiz.
Bir vurur hər zamanürəklərimiz
Eşitsin obalar, ellər bu səsi:
Bu gün bayram edir Odlar ölkəsi

Sevinclə ötüşür onun hər anı,
Dillərdə dolaşır şöhrəti, şanı
Zəfərlər ucaldır Azərbaycanı.

Eşitsin obalar, ellər bu səsi:
Bu gün bayram edir Odlar ölkəsi.
Sevinclə ötüşür onun hər anı,
Dillərdə dolaşır şöhrəti, şanı
Zəfərlər ucaldır Azərbaycanı.
Eşitsin obalar, ellər bu səsi:
Bu gün bayram edir Odlar ölkəsi.

F. Köçərli adına Respublika Uşaq kitabxanasının məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı

Kitablarda

Əkbərov R. Azərbaycanın dövlət və hüquq tarixi : qədim, orta əsrlər və müasir dövrdə. - Bakı : Qanun, 2009. - 604 s.

Qasımlı M. Azərbaycan Respublikasının tarixi. (1191-2021) : 2 cilddə. C. 1. :1191-2003. - Bakı : BDU, 2021. - 383 s.

Mehdiyev R. Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi. - Bakı : Azərbaycan Milli Ensiklopediyası, 2001. - 276 s.

Müstəqillik yolunda yanan işıqlar. - Bakı : Təhsil, 2004. - 342 s.

Paşayev T. Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi : Monoqrafiya. - Bakı : Mütərcim, 2010. - 300 s.

Dövrü mətbuatda

18 oktyabr - müstəqilliyin bərpası günü // Savalan. - 2022. - 18-24 oktyabr. - № 37. - S. 5.

18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Elli. - 2010. - N 10. - S. 14-15.

Abbasov A. Müstəqilliyimiz əbədi və dönməzdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2015. - 15 oktyabr. - № 224. - S. 7.

Abiyev A. Dövlətçiliyimiz etibarlı əllərdədir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 13 oktyabr. - № 230. - S. 5.

Abiyev A. Müstəqil Azərbaycan 22 yaşını bayram edir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2013. - 18 oktyabr. - № 228. - S. 7.

Abiyev A. Müstəqillik xalqımızın milli sərvətidir : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2020. - 18 oktyabr. - № 215. - S. 9.

Ağamirzəyev F. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Xalq qəzeti. - 2015. - 17 oktyabr. - № 226. - S. 5.

Azadlıq təşnəsi : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Mədəniyyət.az. - 2016. - № 10. - S. 8-9.

Babayev B. Keşməkeşli tarix, şanlı Qələbə : 18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür // Respublika. - 2021. - 17 oktyabr. - № 224. - S. 7.

Bayramov G. Ən böyük nailiyyətimiz əbədi və dönməz müstəqilliyimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2018. - 18 oktyabr. - № 233. - S. 5.

Bayramov M. Müstəqilliyimizin parlaq işığı : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 18 oktyabr. - № 234. - S. 3.

Bədəlov Ə. Azərbaycan dövləti bütün dünya azərbaycanlılarının qürur mənbəyidir // Xalq qəzeti. - 2017. - 10 yanvar. - № 4. - S. 3.

Budaqov T. Müstəqillik zirvəsi : Müasir, qüdrətli və qalib Azərbaycan reallığı // Azərbaycan : qəzet. - 2021. - 19 oktyabr. - № 225. - S. 7.

Cəfərli R. Əbədi, daimi, dönməz istiqlal : Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan İlham Əliyevin liderliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır // Azərbaycan : qəzet. - 2018. - 18 oktyabr. - № 234. - S. 1.

Cəlilova L. Müstəqilliyimiz əbədidir, dönməzdir və sarsılmazdır ! : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // İki sahil. - 2013. - 18 oktyabr. - № 196. - S. 21.

Çıraqov N. Müstəqilliyimiz milli sərvətimizdir : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2010. - 20 oktyabr. - N 228. - S. 2.

Elmanoğlu S. Azərbaycanın müstəqilliyinə etibarlı təminat yaratmış siyasət : 18 oktyabr Dövlət Mütəqilliyi Günüdür // Azərbaycan. - 2010. - 17 oktyabr. - N 228. - S. 1.

Əhmədov A. Güclü iqtisadiyyatımız ölkəmizin siyasi maraqlarını təmin edir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2018. - 18 oktyabr. - № 233. - S. 4.

Əhmədov A. Müstəqillik qürur mənbəyimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi günüdür // Respublika. - 2014. - 16 oktyabr. - № 224. - S. 5.

Əhmədov E. Azərbaycan xalqının tarixi nailiyyəti : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2020. - 18 oktyabr. - № 215. - S. 9.

Əhmədov E. Azərbaycanın dövlət müstəqilliyi və qazanılan tarixi nailiyyətlər // Xalq qəzeti. - 2017. - 18 oktyabr. - № 228. - S. 3.

Ələddinqızı N. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Səs. - 2020. - 17 oktyabr. - № 184. - S. 6.

**Ələkbərov Y.** Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2010. - 17 oktyabr. - N 226. - S. 3.

**Əliyev Z**. Azərbaycanın müstəqilliyini möhkəmləndirən lider // Azərbaycan : qəzet. - 2019. - 7 may. - № 99. - S. 7.

**Əliyeva İ**. Güclü dövlət - müstəqil siyasət // Azərbaycan : qəzet. - 2021. - 17 oktyabr. - № 224. - S. 1, 5.

**Əliyeva Y.** İlham Əliyev: Bizim əsas dəyərimiz ən böyük nemətimiz müstəqilliyimizdir : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // İki sahil. - 2020. - 17 oktyabr. - № 184. - S. 21.

**Əliyeva Y.** Prezident İlham Əliyev : Müstəqil siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik : Müstəqil Azərbaycan - 26 // İki sahil. - 2017. - 18 oktyabr. - № 188*. - S. 3.

**Əliyeva Y.** Şanlı Qələbəmiz hər şeyi özü deyir : 18 oktyabr Müstəqilliyin Bərpası Günüdür! // İki sahil. - 2022. - 18 oktyabr. - № 190. - S. 3.

**Əlizadə Ə.** Müstəqillik yolunun uğurları : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2020. - 18 oktyabr. - № 215. - S. 11.

**Əsgərov Ə.** Dövlət müstəqilliyimizin təminatçısı : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2014. - 18 oktyabr. - № 227. - S. 11.

**Əsgərov Ə.** Müstəqillik xalqımızın milli sərvətidir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 13 0ktyabr. - № 230. - S. 5.

**Əsgərova M.** Güclü dövlət, müstəqil siyasət // Respublika. - 2022. - 18 oktyabr. - № 227. - S. 8.

**Əzizov Ə.** Müstəqilliyimiz əbədidir : 18 oktyabr Müstəqillik günüdür // Respublika. - 2007. - 18 oktyabr. - S.8.

**Fətəliyev K.** Müstəqillik xalqımızın tarixi nailiyyətidir : 18 oktyabr müstəqillik günüdür // Respublika. - 2012. - 23 oktyabr. - № 238. - S. 6.

**Hacalıyev E**. Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Azərbaycan. - 2014. - 18 oktyabr. - № 226. - S. 5.

**Hacalıyev E**. Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! : 18 oktyabr - Azərbaycan Dövlət Müstəqilliyi Günü // Azərbaycan : qəzet. - 2016. - 21 oktyabr. - № 232. - S. 6.

**Hacalıyev E**. Dövlət müstəqilliyimizin təminatçısı : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Azərbaycan. - 2013. - 18 oktyabr. - № 229. - S. 1.

**Hacıyev İ.** Müstəqilliyimiz də, dövlətçiliyimiz də əbədidir! // Səs. - 2018. - 18 oktyabr. - № 197. - S. 11.

**Hüseynli İ.** Dünya siyasi elitasında Azərbaycan lideri : Dövlət müstəqilliyi - 25 // Azərbaycan : qəzet. - 2016. - 15 oktyabr. - № 227. - S. 1, 6.

**Hüseynov Ə.** Xalqın tarixi sərvəti : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 17 oktyabr. - № 233. - S. 10.

**Hüseynov M**. Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir // Respublika. - 2016. - 18 noyabr. - № 255. - S. 6.

**Hüseynova İ**. Azərbaycan böyük gələcəyə doğru inamla addımlayır : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // İki sahil. - 2012. - 18 oktyabr. - № 192. - S. 12, 18.

**İmanquliyev B**. Müstəqilliyimizi möhkəmləndirən əsas şərt - xalq-iqtidar birliyi : Bu birlik Qarabağ Zəfərinin də təməlidir // Azərbaycan : qəzet. - 2021. - 17 oktyabr. - № 224. - S. 1, 5.

**İsmayılqızı X.** Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir : 18 oktyabr Azərbaycanın dövlət Müstəqilliyi günüdür // İki sahil. - 2014. - 18 oktyabr. - № 189. - S. 9.

**İsmayılqızı X.** Müstəqilliyimiz tarixi nailiyyətimiz, ən böyük dəyərimiz, sərvətimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // İki sahil. - 2015. - 18 oktyabr. - № 191. - S. 3.

**İsmayılqızı X**. Şərqdə ilk demokratik respublika olan Azərbaycan tərəqqi yolu ilə inkişaf edir, siyasi, iqtisadi gücü artır, qüdrətli ölkələr sırasında mövqeyi möhkəmlənir : 18 oktyabr Azərbaycanın Dövlət
Müstəqilliyi günüdür // İki sahil. - 2013. - 18 oktyabr. - № 196. - S. 10.

**İsmayılov X**. Xalqımızın tarixi nailiyyəti : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2013. - 18 oktyabr. - № 228. - S. 8.

**Kamalqızı R**. Yaşayan və yaşadılan müstəqillik tariximiz : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Səs. - 2015. - 18 oktyabr. - № 193. - S. 4.

**Qasımlı M.** İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir : Dövlət müstəqilliyi - 25 // Azərbaycan : qəzet. - 2016. - 16 oktyabr. - № 228. - S. 1, 4.

**Qədimli Ş.** Ən böyük tarixi nailiyyətimiz // Respublika. - 2022. - 18 oktyabr. - № 227. - S. 8.

**Quliyev T**. Müstəqillik Azərbaycanın ən böyük sərvətidir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Palitra. - 2014. - 21 oktyabr. - № 190. - S. 6.

**Qurbanqızı Z.** Heydər Əliyevin şah əsəri: Müasir, müstəqil və qalib Azərbaycan // Respublika. - 2022. - 11 oktyabr. - № 221. - S. 5.

**Maqsudov A**. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2014. - 18 oktyabr. - № 226. - S. 10.

**Maqsudov A**. Tariximizin şərəf salnaməsi : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2010. - 17 oktyabr. - N 226. - S. 3.

**Mayakovski B**. Müstəqillik böyük nemətdir : 18 oktyabr - Müstəqillik günü // Tumurcuq. - 2007. - oktyabr. - № 7. - S. 3.

**Məhəməliyev N.** Qürur mənbəyimiz : 18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür // Respublika. - 2021. - 17 oktyabr. - № 224. - S. 7.

**Məmmədov A**. Müstəqilliyimiz əbədidir, dönməzdir : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2020. - 18 oktyabr. - № 215. - S. 9.

**Məmmədov C**. Müstəqillik xalqımızın böyük tarixi nailiyyəti və milli sərvətidir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2018. - 14 oktyabr. - № 230. - S. 5.

**Məmmədov M**. Dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir : 18 oktyabr müstəqillik günüdür // Xalq qəzeti. - 2012. - 23 oktyabr. - № 238. - S. 4.

**Məmmədov T.** Müstəqilliyimiz əbədi və dönməzdir // Respublika. - 2018. - 14 oktyabr. - № 230. - S. 5.

**Mərdanov A.** Müasir tariximizin şanlı səhifəsi : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2013. - 18 oktyabr. - № 228. - S. 8.

**Mərdanov İ.** Müstəqillik qürur mənbəyimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2018. - 18 oktyabr. - № 233. - S. 5.

**Məsiyeva Z.** Müstəqil ölkənin vətəndaşı olmaqdan qürur duyuruq : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2019. - 18 oktyabr. - № 230. - S. 5.

**Mirələmov H.** Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! : Tarixin ən qüdrətli Azərbaycanı // Azərbaycan : qəzet. - 2017. - 18 oktyabr. - № 228. - S. 4.

**Mirələmov H**. İstiqlalımızın bayraqdarları : Dövlət müstəqilliyi - 25 // Azərbaycan : qəzet. - 2016. - 14 oktyabr. - № 226. - S. 1, 4.

**Mirzə M**. Dövlət müstəqilliyimiz əbədidir // Respublika. - 2022. - 18 oktyabr. - № 227. - S. 8.

**Mirzəbəyli İ.** Heydər Əliyev: Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir : 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir // Xalq qəzeti. - 2009. - 18 oktyabr. - N 232. - S. 1.

**Mirzəyev E.** Müstəqillik tarixi sərvətimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2014. - 18 oktyabr. - № 226. - S. 10.

**Mirzəyev Ş.** Dövlət müstəqilliyimizin təminatçısı : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2015. - 18 oktyabr. - № 227. - S.

**Mirzəyev Ş.** Müstəqilliyimizin təminatçısı // Respublika. - 2018. - 18 oktyabr. - № 233. - S. 4.

**Muradov E**. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 18 oktyabr. - № 234. - S. 3.

**Muradov V.** Müasir dövrümüzün şanlı səhifəsi : 18 oktyabr Dövlət Müstəqilliyi günüdür // Respublika. - 2014. - 16 oktyabr. - № 224. - S. 5.

Mübarizələrdən keçən yol... : 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Mədəniyyət.az. - 2015. - № 10. - S. 10-13.

**Nağıqızı M.** Elmi təməl üzərində davamlı inkişaf yolu : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 17 oktyabr. - № 233. - S. 10.

**Nağıyev E**. Arzularımızın zirvəsi : 18 oktyabr - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günüdür // Mədəni həyat. - 2012. - № 10. - S. 13.

**Niyazov X.** Müstəqilliyimiz dönməzdir, əbədidir... : 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyi haqqında

Konstitusiya Aktı qəbul edilib // Azərbaycan. - 2012. - 18 oktyabr. - № 234. - S. 1.

**Novruzov Z.** Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Xalq qəzeti. - 2015. - 17 oktyabr. - № 226. - S. 7.

**Orucova G**. Dövlət müstəqilliyimizin bərpasından sonra həyata keçirilən iqtisadi-siyasi islahatlar nəticəsində ölkəmiz tarixi nailiyyətlər qazanmışdır : 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Xalq qəzeti. - 2014. - 21 oktyabr. - № 228. - S. 9.

**Rzaquliyeva N.** Müasir Azərbaycan tarixinin şanlı səhifəsi : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 17 oktyabr. - № 233. - S. 10.

**Sadıqov B**. Müstəqil dövlətdə yaşamaq səadəti // Azərbaycan : qəzet. - 2019. - 18 oktyabr. - № 231. - S. 1, 4-5.

**Seyidov H.** Müasir tariximizin şanlı səhifəsi : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2018. - 18 oktyabr. - № 233. - S. 5.

**Səlimova H**. Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2013. - 18 oktyabr. - № 228. - S. 1, 7.

**Süleymanov T.** Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2013. - 18 oktyabr. - № 228. - S. 7.

**Süleymanov T**. İnkişaf və tərəqqinin təməli : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 18 oktyabr. - № 234. - S. 3.

**Şabanov R**. Müasir Azərbaycan müstəqilliyi Heydər Əliyevin adı ilə bağlıdır : 18 oktyabr Dövlət Müstəqilliyi günüdür // Respublika. - 2014. - 16 oktyabr. - № 224. - S. 5.

**Şahmarov Ə**. Müstəqillik milli sərvətimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2014. - 18 oktyabr. - № 226. - S. 9.

**Şükürov Q.** Müstəqilliyi möhkəmləndirən hüquqi dövlət konsepsiyası // Azərbaycan : qəzet. - 2016. - 15 oktyabr. - № 227. - S. 9.

**Vəfa Z.** Müstəqillik simfoniyası : şeir // Kaspi. - 2013. - 19 oktyabr. - № 191. - S. 16.

**Yusifoğlu R**. Gözün aydın, Azərbaycan : 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü : şeir // Göyərçin. - 2016. - № 10. - S. 4.

**Yusif-zadə Z**. Azərbaycanın ən şanlı tarixi : 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Azərbaycan. - 2013. - 18 oktyabr. - № 229. - S. 8.

**Zamanov A**. Dövlət müstəqilliyinin bərpasına aparan yol : Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! // Azərbaycan : qəzet. - 2021. - 17 oktyabr. - № 224. - S. 9.

**Zeynalov A.** Müstəqilliyimiz qürur mənbəyimizdir : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2012. - 17 oktyabr. - № 233. - S. 10.

**Zeynalov Ə.** Müstəqillik asan olmayıb, yaxud bu günün reallıqları : 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2020. - 17 oktyabr. - № 214. - S. 10.

**Zəkiyev A**. Müstəqilliyimizin Qarantı : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür // Respublika. - 2014. - 18 oktyabr. - № 226. - S. 9.

**Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir!**

**(metodik vəsait)**

**Komputer yığımı
və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**